# Təntənəli bayram tədbiri





Oktyabrın 17-də Qəbələ Şəhər Mədəniyyət Mərkəzində 18 oktyabr-Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü münasibətilə təntənəli bayram tədbiri keçirilmişdir.

Qəbələ rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə rayon icra hakimiyyətinin baş məsləhətçisi Zahid Əfəndiyev yığıncaq iştirakçılarını milli dövlətçilik tariximizdə ən əlamətdar gün münasibətilə təbrik edərək, müstəqillik illərində əldə edilən uğurların geniş təhlilini verdi.

Qeyd edildi ki, ümummilli liderimiz Heydər Əliyevin qoruyub yeni mərhələyə qaldırdığı dövlət müstəqilliyi bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində daha da möhkəmlənir və inkişaf edir. Ölkəmiz yeni-yeni uğurlara imza atmaqla, sosial-iqtisadi inkişafın yeni hədəflərini müəyyənləşdirməklə müstəqillik yollarında qətiyyətlə irəliləyir.

Tədbirdə "Çinar" instrumental ansamblının üzvləri rayon incəsənət məktəbinin şagirdləri maraqlı konsert proqramı ilə çıxış etdilər.

**«Qəbələ».**

**Fotolar İ. Vəlizadənindir.**

# Təbliğat kampaniyası davam edir

**(Əvvəli 7-ci səhifədə).**

Seçicilərdən Niyazi Abdullayev, Soltan Hacıyev, Nazimə Ağayeva, Eldar Məmmədxanov və başqaları çıxış edərək Kiçik Əmili kəndində yeni məktəb binasının tikilməsinə, kəndlərinin qazlaşmasına, daim seçicilərlə görüşərək onların problemlərinin həllinə Fəttah müəllimin göstərdiyi köməkliklərdən danışdılar.

Noyabrın 1-də hamılıqla ona səs verəcəklərini bildirdilər.

Tədbiri yekunlaşdıran Bəhmən Məmmədov görüşə gəldikləri üçün seçicilərə minnətdarlıqlarını bildirdi, onları noyabrın 1-də seçki məntəqələrinə gələrək ən layiqli namizəd Fəttah Heydərova səs verməyə dəvət etdi.

* * *

Seçkilərlə əlaqədar seçicilərlə Yenikənd kəndində keçirilən təbliğat tədbirinə Topbağ kəndinin seçiciləri də qoşulmuşdular. Milli Məclisin deputatlığına namizəd Fəttah Heydərovun vəkilləri Qüdrət Səmədov və Nəriman Şərifov təmsil etdikləri namizədin həyat və fəaliyyəti barədə seçicilərə məlumat verdilər. Onlar eyni zamanda Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyilə ölkəmizdə həyata keçirilən uğurlu inkişafdan, Qəbələ rayonundakı tikinti abadlıq işlərindən, iqtisadiyyatın yüksəldilməsi üçün görülən işlərdən və əldə olunmuş nəticələrdən danışdılar.



Çıxış edən seçicilər noyabrın birində ərazidəki bütün seçicilərin seçkilərdə fəal iştirak edərək onları Milli Məclisdə bu vaxta qədər layiqincə təmsil etmiş Fəttah Heydərova səs verəcəklərini bildirdilər.

Seçicilərlə Məlikli kəndində keçirilən görüşdə də bu kəndlə bərabər Əmirvan, Bılıx və Sileyli kəndindən olan seçicilər fəal iştirak etdilər. Milli Məclisə deputatlığa namizəd Fəttah Heydərovun vəkilləri Qüdrət Səmədovun və Nəriman Şərifovun məlumatlarından sonra seçicilərin nümayəndələri namizəd haqqında ürək sözlərini dedilər. 20 ildir onları Milli Məclisdə uğurla təmsil edən, rayonun bütün sosial-iqtisadi problemlərinin həllində yaxından iştirak edən Fəttah Heydərova noyabrın 1-də keçiriləcək seçkilərdə yenidən etimad göstərəcəklərini bildirdilər.

**Qüdrət SƏMƏDOV.**

**Fotolar İ. Vəlizadənindir.**

## Qəbələdə yaşı 800-1000 il olan qiymətli şabalıd ağacları xüsusi mühafizə olunur

Qəbələ rayonunda yaşı min ilə çatan şabalıd ağacları nadir təbiət abidəsi kimi qorunur.

Hazırda Qəbələ ərazisində 386 hektar sahədə şabalıd bağları mövcuddur. Cari ildə dövlət meşə fondunun ərazisində 5 hektar sahədə 5500 ədəd keyfiyyətli, dadı və iri meyvəsi ilə tanınan "Xanlıq" şabalıdı tingi əkilmişdir.

Eyni zamanda, meşələrdə və həyətyanı sahələrdə yaşı 500-800 il, hündürlüyü 30-40 metr olan irigövdəli qiymətli şabalıd ağacları xüsusi mühafizə olunur. Rayonun Həmzəli kəndində isə yaşı 800-1000 il, diametri 2-2,5 metr olan 10 ədəd nadir şabalıd ağacı təbiət abidəsi kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin siyahısına daxil edilmişdir.

*Qəbələ rayon Turizm İnformasiya Mərkəzi 2015-ci ilin sair xərclərinə dair kotirovka sorğusu elan edir. Elanın müddəti 21 oktyabr 2015-ci il tarixdən 28 oktyabr 2015-ci il tarixədəkdir.*

**Qəbələ Turizm İnformasiya Mərkəzi.**

## Təbrik edirik



*Əziz balamız Zəhra!*
*9 yaşın mübarək!*
*Səni doğum günün münasibətilə təbrik edir, can sağlığı, xoşbəxtlik arzulayırıq.*

***Baban Qüdrət, nənələrin Tamella, Səbirə, atan Mübariz, anan Vəfa, dayıların, əmilərin, bibin.***

## Təbrik edirik



*Sevimli balamız Zəhra!*
*Bir yaşın mübarək!*
*Səni doğum günün münasibətilə təbrik edir, can sağlığı, xoşbəxtlik arzulayırıq.*

***Babaların Sahib, Bəxtiyar, nənələrin Məlahət, Dünyaxanım, atan Sübhan, anan Taliə, əmin Rəşadət, dayın İqbal, xalan Səmra, bibin Sədaqət.***

**ALLAH RƏHMƏT ELƏSİN**

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Nadir Atakişiyevə**, qaynanası

**SEYRİ XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**
*Məsul növbətçi:*
*Q. C. Səmədov.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: (024)20 5-15-56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydдən keçmişdir.**
**Lisenziya AV № 022611**
**«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149**
**VÖEN: 4400103601**

**Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Tiraj 2300.**
**Oxucu məktubları geri qaytarılmır.**